**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
______ dos. Zaur Məmmədov
" 20 " 09 2025-ci il

# FƏNN SİLLABUSU

**İxtisas:** 050101- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:** Ədəbiyyatşünaslığa giriş. Proqramı: Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Azərbaycan dili və ədəbiyyatı" bölməsinin 21.12.2010-cu il taixli iclasında (protokol №42)
**Kodu:**İF-B08
**Tədris ili:** I (2025-2026). Semestr: I
**Tədris yükü cəmi**: Auditoriya saatı 45 (Mühazirə 30 saat, Seminar 15 saat)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**Saat:**
**II. Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** fil.e.n.,dosent Elşad Məhərrəm oğlu Səfərli
**Məsləhət günləri və saatları:** 4 gün, saat 8.30-14.00
**E-mail ünvanı:** elsad-1957@mail.ru
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas ədəbiyyat:**

1. M.Cəlal.P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1988
2. A.Hacıyev.Ədəbiyyat nəzəriyyəsi.Bakı, 1996
3. A.Hacıyev. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1999
4. X.Əlimirzəyev. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları, Bakı, 2008
5. Aristotel. Poetika. Bakı, 1974
6. Bualo N.D. Poeziya sənəti. Bakı, 1969

**Əlavə ədəbiyyat:**

1. R.Əliyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2010
2. N.Şəmsizadə. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2012
3. Ş.Mikayilov. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Maarif, 1988
4. M.Mahmudov.Ərəbcə yazılmış azərbaycanlı şair və ədiblər. Bakı, 2006

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən müvafiq hansısa fənnin tədrisi vacib deyil.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**"Ədəbiyyatşünaslığa giriş" tədris kursu Azərbaycan dili, ədədbiyyatı və onların tədrisi metodikasıkafedrası nəzdində "Filologiya" istiqaməti üzrə ixtisasların tədris planı çərçivəsində işlənmişdir. Tədris planına uyğun olaraq bu kurs bakalavr tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun tədrisi tədris ilinin I semestrində 45 saat ( 30 s. mühazirə, 15 s. seminar) nəzərdə tutulur. Müasir şəraitdə elmi informasiyanın artması yüksək peşə və nəzəri hazırlıqla yanaşı, müstəqil yaradıcı iş bacarığına malik yüksək ixtisaslı filoloqların hazırlanması ciddi əhəmiyyət daşıyır. Bununla bağlı, ali məktəbin tədris planı tələbələrin Ədəbiyyatşünaslıq elmi ilə yaxından tanış olmaları, bədii əsərlərin ümumbəşər əhəmiyyətini, spesifik xüsusiyyətlərini, nəzəri aspektlərinin öyrənmələri

nəzərdə tutulur.Kursun məqsədi "Ədəbiyyatşünaslığa giriş" kursunun yeni tələblər baxımından tədrisi, dünya ədəbiyyatının nəzəri xüsusiyyətlərini, məzmun və forma anlayışının, nov və janrlarının, ədəbi metod və cərəyanlarının tələbələrə dərindən mənimsədilməsidir ki, bu da müasir dövrdə ədəbiyyatşünaslıqda vacib faktorlardan birinə çevrilmişdir. Dünya xalqlarının zəngin ədəbi prosesin öyrənilməsi təkcə bu faktla bitmir, bu proses ədəbi irslərin mənimsənilməsi ilə yanaşı, bu ədəbiyyatların tədqiqində və bir sıra elmi – nəzəri ,estetik – metodoloji prinsiplərin də yeni konsepsiyalar əsasında işlənməsində ədəbiyyatşünaslara yardımçı olur.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X.Təqvim mövzu planı:** *Mühazirə 30 saat, Seminar 15 saat,* ***Cəmi: 45 saat***

| № | Keçirilən mühazirə mövzularının məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | **Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Ədəbiyyat nəzəriyyəsi elmi: tarixi, predmeti və tədqiq obyekti.** **Plan:** Ədəbiyyatşünaslıq bir elm kimi. Bu elmin inkişafında Azərbaycan elmi-nəzəri fikrinin rolu. Ədəbiyyat nəzəriyyəsinin yaranma tarixi, predmeti və obyekti | 2 | |

| | | | |
|---|---|---|---|
| | **Mənbə:** [1,3,10,11,13,14,16] | | |
| 2 | **Ədəbi nəzəri fikrin əsas inkişaf mərhələləri (antik dövr).**<br>**Plan:** Ədəbi-nəzəri fikrin inkişaf istiqamətləri və mərhələləri. Antik filosofların ədəbi-nəzəri fikrin yaranmasında xidmətləri. Aristotel poetikası. Aristotel və Sokratın sənət nəzəriyyələri. Antik dövrün sənət konsepsiyasının nəzəri xüsusiyyətləri<br>**Mənbə:** [1,2,7,8,9,11,12,13,15] | 2 | |
| 3 | **Ədəbi-nəzəri fikrin intibah və yeni dövr mərhələsi.**<br>**Plan:** Ədəbi nəzəri fikrin intibah mərhələsinin özünəməxsus sənət konsepsiyası. Bədii yaradıcılıqda elmin vəhdəti məsələsi. Füzuli estetikasını nəzəri prinsipləri.Klassisizm estetikası. İncəsənətin mənşəyi və spesifikası. Hegel incəsənətinin mahiyyəti<br>**Mənbə:** [1,2, 11,12,13, 14,15,16] | 2 | |
| 4 | **Bədii ədəbiyyatda tipiklik, xəlqilik və millilik.**<br>**Plan:**Tipikliyin bədii əsərin mükəmməlliyində rolu. Tipikliyin estetik bir kateqoriya kimi. Tipikliyin təzahür xüsusiyyətləri. Fərdiləşmə, ümumiləşdirmə və tipikləşmənin estetik prinsipləri<br>**Mənbə:** [1,2, 9,10,13, 14] | 2 | |
| 5 | **Bədii ədəbiyyatda məzmun və forma.**<br>**Plan:**Məzmun və formanın ədəbi yaradıcılığda yeri, əhəmiyyəti. Məzmun və forma anlayışı. Məzmunla formanın qarşılıqlı əlaqəsi vəhdət və ziddiyəti. Əsrdə məzmun və forma estetikliyi. Aristotelin "Poetika" əsərində məzmun anlayışı. Əsərin forma strukturu<br>**Mənbə:** [1,2, 8,10,11,13] | 2 | |
| 6 | **Bədii əsərin kompozisiyası və sujeti.**<br>**Plan:**M.Rəfili kompozisiya haqqında. Kompozisiyanın əsərin arxitektonika mükəmməlliyində rolu. Kompozisiyanın əsərin ideya-məzmun istiqaməti ilə bağlılığı. Kompozisiyanın quruluş qaydaları. Kompozisiya və əsərin komponentlərinin vəhdəti<br>**Mənbə:** [1,2, 3, 9,10,11, 13, 16, 17] | 2 | |
| 7 | **Bədii əsərin dili.**<br>**Plan:**Bədii dil və ədəbi dil anlayışları. Bədii dilin tərkibi arxaizmlər, varvarizm, vulqarizm, neologizm, tarixizm və s.<br>**Mənbə:** [1,2, 9,10,11, 13, 17] | 2 | |
| 8 | **Məcazlar sistemi.**<br>**Plan:** Bədii təsvir vasitələri. Bədii ifadə vasitələri. Bədii təsvir vasitələrinin bir-birindən fərqli cəhətləri. Məcazlar sisteminin yaranmasında müqayisənin rolu.Poetik fiqurlar sistemi. Poetik sintaksis anlayışı. Məcazlar sistemi. Obrazlı vasitələr kimi<br>**Mənbə:** [1,2,3,5,7,8,9] | 2 | |
| 9 | **Azərbaycan şeirinin vəznləri. Heca vəzni.**<br>**Plan:** Heca vəzninin Azərbaycan şeirində işlənmə tarixi. Əsa xüsusiyyətləri. Heca vəzni və ahəng. Barmaq vəzni. Heca vəznində misraların hecalara görə say bərabərliyi. Müxtəlif hecalı şeirlər və<br>əsas prinsipləri. Şeirin struktur cəhətləri<br>**Mənbə:** [1,2, 5,7,8,9,10,11, 17] | 2 | |
| 10 | **Əruz vəzni. Sərbəst vəzn.**<br>**Plan:** Əruz şeir ölçüsünün mənşəyi və yayılması. Əruz şeir ölçüsünün xüsusiyyətləri. Əruz vəznində bölgü prinsipi. Uzun və qısa hecalar. Təfilə birləşmələrinin bəhrlərinin yaranmasında rolu. Əruz vəzninin bəhrləri. Sərbəst vəzn anlayışı. Digər vəznlərlə müştərək, oxşar, həm də bir-birindən əsaslı şəkildə fərqlənən xüsusiyyətləri. Azərbayucan şeirində sərbəst vəznin yaranması. Bu vəzndə yaradan ilk Azərbaycan şairləri<br>**Mənbə:** [1,2, 3, 5,7,8,9,10,11, 17] | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 11 | **Ədəbi növlər və janrlar. Lirik növ və janrları. Epik növ və janrları.**<br>**Plan:** Ədəbi növlər və janrların yaranma xüsusiyyətləri. Həyatı əksetdirmə üsulu kimi ədəbi əsərlərin növləri. Janrlar və növlərin yaranma prinsipləri. Lirik növün və janrların əsas mövzu dairəsi. Lirikanın növləri. Qafiyə, bölgü və digər xüsusiyyətləri. Epik anlayışı. Təsviri janr. Epik növün janrları. Təmsil hekayə və novellanın bir-birindən fərqli cəhətləri. Təsvirlə təhkiyənin fərqi. Epos anlayışı. Əsatir, əfsanə və nağıl. Dastan. Nəsirimizdə epopeya janrı<br>**Mənbə:** [1,2, 5, 6, 7, 8, 9,10,11, 13,14,17] | 2 | | |
| 12 | **Dramatik növ və janrları.**<br>**Plan:** Dram həyatı əksetdirmə vasitəsi kimi. Dram janrının yaranma tarixi. Faciə komediya və dram janrının oxşar və fərqli cəhətləri. İlk faciələr. Komediyanın cəmiyyətin inkişafında rolu. M.F.Axundzadə komediya haqqında. Dramın janr xüsusiyyətləri və kiçik həcmli növləri. Azərbaycanda dramın inkişaf perspektivləri<br>**Mənbə:** [1,2, 3,9,10,11, 13,17] | 2 | | |
| 13 | **Üslub, ədəbi metod və cərəyanlar.**<br>**Plan:** Bədii yaradıcılıq metodu. Ədəbi cərəyan və ədəbi məktəb. Realist, romantik və digər metodlar. Metod və fərdi üslub. Metodların təzahür xüsusiyyətləri. Romantik və realist yaradıcılıq tipi<br>**Mənbə:** [1,2, 5,6,9,10,11, 17] | 2 | | |
| 14 | **Klassisizm, Sentimentalizm. Maarifçilik. Romantizm, realizm.**<br>**Plan:** Klassisizm anlayışı. Yalançı klassisizm. Klassisizmdə "üç vəhdət" prinsipi. Klassisizmin nəzəri prinsipləri. Bualo klassisizmin ilk nəzəriyyəçisi kimi. "Roziya sənəti"ndə klassisizmin şərhi. Romantizm anlayışı. Ən görkəmli nümayəndələri. Mütərəqqi və mürtəce romantizm terminləri. Çağdaş ədəbiyyatşünaslıqda bu anlayışlara münasibət. H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq romantizminin əsas xüsusiyyətləri. Romantizmin nəzəri prinsipləri. Realizm yaradıcılıq metodu. Romantizmdən fərqli və oxşar cəhətləri. Maarifçiliyin yaranması. Nəzəri prinsipləri. Azərbaycan ədəbiyyatında ilk maarifçilər. İ.Qutqaşınlı, A.A.Bakıxanov, MŞ.Vazehin maarifçilik görüşləri. Tənqidi realizmin yaranmasında maarifçiliyin rolu. Sentimentalizm anlayışı. L.Sternin "Sentimental səyahət" əsəri. Mütərəqqi və mürtəce sentimentalizm. Azərbaycan ədəbiyyatında təşəkkülü.<br>**Mənbə:** [1,2,3,8,9,10,13,15, 17] | 2 | | |
| 15 | **Tənqidi realizm. Formalist ədəbi cərəyanlar. Modernizm və postmodernizm.**<br>**Plan:** Formalist ədəbi cərəyanların yaradıcılıq prinsipləri. Strukturalizm, sürrealizm və impressionizmin nəzəri-estetik əsasları. Fəaliyyət prinsipləri. Formalist-modernist cərəyanların yaranması tarixi. Estetik-nəzəri sənət prinsipləri. Avropa ədəbiyyatında modernist-postmodelnist ədəbiyyatın mövqeyi. Çağdaş ədəbiyyatımızda təzahür cəhətləri<br>**Mənbə:** [1,2,5,6, 8,9,10,11,13,15,16, 17] | 2 | | |
| **№** | **Keçirilən seminar mövzuların məzmunu** | | | |
| 1 | Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Ədəbiyyat nəzəriyyəsi elmi: tarixi, predmeti və tədqiq obyekti. Ədəbi nəzəri fikrin əsas inkişaf mərhələləri (antik dövr) | 2 | | |
| 2 | Ədəbi-nəzəri fikrin intibah və yeni dövr mərhələsi. Bədii ədəbiyyatda tipiklik, xəlqilik və millilik. | 2 | | |
| 3 | Bədii ədəbiyyatda məzmun və forma. Bədii əsərin kompozisiyası və sujeti. | 2 | | |
| 4 | Bədii əsərin dili. Məcazlar sistemi | 2 | | |
| 5 | Azərbaycan şeirinin vəznləri. | 2 | | |
| 6 | Ədəbi növlər və janrları. | 2 | | |
| 7 | Üslub, ədəbi metod və cərəyanlar. Klassisizm, Sentimentalizm. Maarifçilik. | 2 | | |

| | | | |
|---|---|---|---|
| | Romantizm, realizm | 1 | |
| 8 | Tənqidi realizm. Formalist ədəbi cərəyanlar. Modernizm və postmodernizm. | | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:** Tələbə Azərbaycan ədəbiyyatşünaslığının tərkib hissəsi olan ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, ədəbi tənqid haqqında məlumatları, bədii əsərin poetikası məsələlərini ədəbi prosesin bütün sahələri üzrə tam elmi-nəzəri məlumata yiyələnməli,həmçinin ədəbi metod,üslub,ədəbi cərəyanlar,bu sahə üzrə digər problem və məsələlər haqqında bilgiləri mənimsəməlidir.

**XII. Fənn üzrə təlimin nəticələri:**

1.Tələbə "Ədəbiyyatşünaslığa giriş" fənnini bədii ədəbiyyatın təkamül prosesi, nəzəri və inkişaf problemləri, bədii yaradıcılığın yaranma qaydalarının xüsusiyyətlərii və ədəbiyyatşünaslığın digər sahələri ilə əlaqəli şəkildə öyrənmişdir.

2.Ədəbiyyatın əsas nəzəri məsələləri və komponentlərini bədii materiallar əsasında mənimsəməklə, nəzəri fikirlərin təcrübi tətbiqinə nail olur və digər məsələlərin öyrənilməsi istiqamətində dolğun təsəvvürlər əldə edir.

3.Bədii ədəbiyyatı ictimai təfəkkürün obrazlı forması kimi. incəsənətin başqa növləri ilə ümumi və fərqli cəhətləri, bədii ədəbiyyatın idraki əhəmiyyəti və emosial-estetik forması haqqında bilgilərə yiyələnir.

4.Şifahi xalq ədəbiyyatının özünəməxsusluğu, folklor və yazılı ədəbiyyat, ümumi və fərqli cəhətləri haqqında təsəvvürlərini genişləndirir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. Ədəbi-nəzərin fikrin inkişafının antik dövr mərhələsi
2. Ədəbi-nəzəri fikrin inkişafının İntibah mərhələsi
3. Ədəbi tənqidin məqsəd və vəzifələri
4. Ədəbiyyatşünaslıq elminin sahələri
5. Bədii ədəbiyyatda tipiklik
6. Tip və xarakter
7. Bədii əsərin məzmun və forma vəhdəti
8. Bədii əsərin kompozisiyası
9. Bədii əsərin süjeti
10. Bədii dil və onun tərkib hissələri

**II Kollokvium sualları**

1. Məcazlar sistemi
2. Azərbaycan şeirinin vənləri
3. Ədəbi metod və cərəyanları
4. Əruz vəzninin bəhrləri
5. Lirik növ və janrları
6. Bədii təsvir vasitələri
7. Bədii ifadə vasitələri
8. Epik növ və janrları
9. Dramatik növ və janrları
10. Romantik və realist yaradıcılıq tipi

**XV. İmtahan sualları:**

1. Ədəbi-nəzərin fikrin inkişafının antik dövr mərhələsi
2. Ədəbi-nəzəri fikrin inkişafının İntibah mərhələsi
3. Ədəbi tənqidin məqsəd və vəzifələri
4. Romantik və realist yaradıcılıq tipi
5. Klassisizm ədəbi cərəyanı
6. Romantizm ədəbi cərəyanı
7. Klassisizmin "3 vəhdət qanunu"

8. Tənqidi realizm ədəbi cərəyanı
9. Sentimentalizm ədəbi cərəyanı
10. Maarifçilik ədəbi cərəyanı
11. Ədəbi metod və cərəyanlar
12. Ədəbiyyatşünaslıq elminin sahələri
13. Bədii əsərin dili. Arxaizmlər
14. Bədii dildə neologizmlər
15. Bədii üslub
16. Bədii dil və onun tərkib hissələri
17. Bədii dil
18. Əcnəbi sözlər-varvarizm
19. Sözün müstəqim və məcazi mənası
20. Jarqonizm və vulqarizm
21. Bədii əsərdə provinsializm və dialektizm
22. Bədii ədəbiyyatda gülüş
23. Bədii ədəbiyyatda satira və yumor
24. Bədii ifadə vasitələri
25. Epik növ janrları
26. Oçerk və hekayə
27. Povest
28. Əsatir və əfsanə
29. Hekayə və novella
30. Epik növ. Roman və epopeya
31. Epik növ. Epos, tapmaca və təmsillər
32. Lətifə və nağıl
33. Bədii ədəbiyyatda tipiklik
34. Tip və xarakter
35. Prototip(proobraz) və bədii obraz
36. Aristotelin"Poetika"sında fabula anlayışı
37. Bədii əsərin kompozisiyası
38. Bədii əsərin süjeti
39. Bədii əsərin məzmun və forma vəhdəti
40. Bədii əsərin forması
41. Süjetin mərhələləri
42. Bədii təsvir vasitələri
43. Təkrir və növləri
44. Məcazlar sistemi
45. Metafora
46. Epitet və simvol
47. Mübaliğə və litota
48. Alleqoriya və kinayə
49. Azərbaycan şeirinin vəznləri
50. Heca vəzni
51. Əruz vəzni
52. Əruz vəzninin bəhrləri
53. Sərbəst vəzn
54. Şeirdə bölgü və qafiyə
55. Metonimiya və sinekdoxa

56. Lirik növ və janrları
57. Dramatik növ və janrları
58. Komediya
59. Dram janrı
60. Faciə janrı

**"Ədəbiyyatşünaslığa giriş"** fənninin sillabusu **050101** "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. **"Azərbaycan dili və ədəbiyyat"** kafedrasının 9 sentyabr 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 01 ).

**Kafedra müdiri:** **dos. Q.İ.Rufullayev**

**Fənn müəllimi:** **dos. E.M.Səfərli**

Tanış oldum: dos. E.S.